Bakalavriat, magistratura və rezidenturaya qəbul və dövlət qulluğuna işə qəbul üzrə imtahanların məzmunu ilə bağlı materialların hazırlanması, ekpertizası və ümumtəhsil müəssisələrində qüvvədə olan dərsliklərin monitorinqində ekspert kimi iştirak etmək istəyənlərin nəzərinə

Dövlət İmtahan Mərkəzi (DİM) 26 oktyabr 2021-ci il tarixindən bakalavriat, magistratura və rezidenturaya qəbul və dövlət qulluğuna işə qəbul üzrə imtahanların məzmunu ilə bağlı materialların (proqramlar, imtahan modelləri və yoxlama-ölçmə materiallarının hazırlanması, ekspertizası, tədris aparılan digər dillərə tərcüməsi) hazırlanmasında, ümumtəhsil müəssisələrində qüvvədə olan dərsliklərin monitorinqində ekspert kimi iştirak etmək istəyənlərin elektron qeydiyyatına başlayır.

Qeydiyyat 26 oktyabr 2021-ci il tarixindən 1 dekabr 2021-ci il saat 23:59-dək aparılır.

Qeydiyyatdan keçmək istəyənlər DİM-in saytında "Şəxsi kabinet" yaratmalı, bu keçiddən istifadə etməklə, "Şəxsi vərəq"i doldurmalı və təsdiq etməlidir.

Qeydiyyat zamanı "Şəxsi vərəq"in təsdiq edilməsində çətinlik yaranarsa, həmin şəxslər (012) 310-53-16 (daxili nömrə: 1524) telefon nömrəsinə zəng edə və DİM-in Regional Bölmələri ilə əlaqə saxlaya bilərlər. Regional Bölmələrin ünvanları və əlaqə vasitələri ilə aşağıda tanış ola bilərsiniz.*

*DİM-in Naxçıvan MR Regional Bölməsi (Naxçıvan ş., Nizami küçəsi, 10);

Tel: (036 5) 44 04 02

DİM-in Gəncə Regional Bölməsi (Gəncə ş., H.Əliyev meydanı, İnzibati bina);
Tel: (022 25) 6 50 67

DİM-in Lənkəran Regional Bölməsi (Lənkəran ş., H.Aslanov xiyabanı 52);

Tel: (025 25) 5 24 82

DİM-in Xaçmaz Regional Bölməsi (Xaçmaz ş., Məmmədəmin Rəsulzadə küçəsi, 7b); Tel: (023 32) 5 01 21

DİM-in Şəki Regional Bölməsi (Şəki ş., M.Rəsulzadə prospekti, 182); Tel: (024 24) 4 66 14

DİM-in Şirvan Regional Bölməsi (Şirvan ş., Rəsulzadə küçəsi, 19); Tel: (021 21) 5 15 23

DİM-in Göyçay Regional Bölməsi (Göyçay ş., Rauf İsayev küçəsi, 43); Tel: (020 27) 4 66 74

DİM-in Bərdə Regional Bölməsi (Bərdə ş., H.Əliyev prospekti, 100). Tel: (020) 205-01-86

DİM-in Şəmkir Regional Bölməsi (Şəmkir ş., Bakı-Qazax şosesi, 350 km, İnzibati bina “West gate”); Tel: (051) 566-41-73

Aşağıda göstərilən tələblərə cavab verənlər qeydiyyatdan keçə bilərlər.

Ümumi tələblər

1. Ali təhsil;
2. Təhsil sahəsində və peşəkar fəaliyyətində ən az 3 illik staj;
3. Ölkənin təhsil sistemində müxtəlif təhsil pillələri üzrə tətbiq edilən kurikulumlar və qiymətləndirmə konsepsiyası haqqında məlumatlılıq;
4. Təhsildə Milli və Beynəlxalq qiymətləndirmə haqqında məlumatlılıq;
5. Məlumat toplamaq, analitik təhlil aparmaq, sistemləşdirmək, proqnozlaşdırmaq, diqqətli olmaq və nəticə çıxarmaq bacarıqları;
6. Obyektivlik və prinsipiallıq;
7. Məsuliyyətlilik, dürüstlük, komandada işləmə bacarığı, təmkinlilik keyfiyyətləri;
8. MS Windows əməliyyat sistemi, MS Office paketinə daxil olan proqramlar və internet xidmətləri (istifadəçi səviyyəsində) haqqında məlumatlılıq .

Bakalavriat üzrə

1. Buraxılış və qəbul imtahanları fənlərinin biri üzrə ali təhsil;
2. Ümumi təhsil sahəsi üzrə fəaliyyət;
3. “Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)” sənədi haqqında məlumatlılıq;
4. Müvafiq fənn kurikulumunun strukturu, məzmunu və təlim nəticələri haqqında məlumatlılıq;
5. Yoxlama-ölçmə materiallarının hazırlanması məqsədilə, “klassik və müasir test nəzəriyyəsi” haqqında məlumatlılıq;
6. İmtahanlarda bilik və bacarıqların qiymətləndirilməsində istifadə edilən müxtəlif formalı (qapalı, cavabı kodlaşdırılan açıq, cavabı yazı ilə ifadə olunan açıq) tapşırıqlar haqqında məlumatlılıq;
7. Test tapşırıqlarının tərtibi və ekspertizası ilə bağlı ilkin təsəvvürlərin olması;
8. Yoxlama-ölçmə materiallarının tədris aparılan digər dillərə (rus, gürcü, ingilis) tərcümə bacarığı.

Dərsliklərin elmi-metodiki monitorinqi üzrə

1. Ölkədə tətbiq edilən dərslik siyasəti, dərsliklərin hazırlanması qaydaları və dərsliklərin qiymətləndirilməsi meyarları haqqında məlumatlılıq;
2. Dərsliklərin elmi-metodiki monitorinqinin aparılması qaydaları və meyarları haqqında məlumatlılıq;
3. Müvafiq fənn kurikulumunun məzmunu, strukturu (məzmun xətləri, standartlar) və təlim nəticələri haqqında məlumatlılıq;
4. Müvafiq fənn üzrə ümumtəhsil müəssisələrində qüvvədə olan dərslik komplektlərinin məzmunu haqqında məlumatlılıq;
5. Dərsiklərdəki təlim materiallarının fənn kurikulumuna görə məzmun xətləri, alt standartların tələbləri və təlim nəticələrinə uyğunluğu haqqında məlumatlılıq;
6. Azərbaycan (və ya rus) dilində (tərcüməçi və tərcümənin eksperti kimi cəlb olunanlar üçün hər iki dildə) fikrini səlis ifadə etmə və kifayət qədər qrammatik normalara əməl etməklə yazma qabiliyyəti;
7. Verdiyi rəyə görə məsuliyyət daşımaq.

Magistratura üzrə

1. Müvafiq sahə üzrə ali təhsil;
2. Azərbaycan (və ya rus) dilində (tərcüməçi və tərcümənin eksperti kimi cəlb olunanlar üçün hər iki dildə) fikrini səlis ifadə etmə və kifayət qədər qrammatik normalara əməl etməklə yazma qabiliyyəti;
3. Müvafiq sahə üzrə elmi və ya elmi-pedaqoji təcrübə;
4. Test tapşırıqlarının tərtibi və ekspertizası ilə bağlı ilkin təsəvvürlərin olması;
5. Cari ildə qəbul imtahanına hazırlaşan yaxın qohumunun olmaması.

Rezidentura üzrə

1. Əsas (baza ali) tibb təhsilinə malik olmalıdırlar
2. Baza fənləri üzrə bu fənləri tədris edənlər (və ya nə zamansa tədris etmişlər), eləcə də praktik həkimlər də test tapşırığını tərtib və tərcümə edə bilərlər,

ekspertizada isə yalnız baza fənlərini tədris edənlər (və ya nə zamansa tədris etmişlər) iştirak edə bilərlər;

3. İxtisas fənləri üzrə həm test tərtibində və tərcüməsində, həm də ekspertizada bu fənləri tədris edənlər (və ya nə zamansa tədris etmişlər), eləcə də praktik həkimlər iştirak edə bilərlər;
4. Testlərin tərtibi və tərcüməsi yalnız DİM-də aparılır.

Dövlət qulluğuna işə qəbul (və ya sertifikat alınması) imtahanları üzrə

1. Müvafiq sahə üzrə ali təhsil;
2. Azərbaycan dilində fikrini səlis ifadə etmə və kifayət qədər qrammatik normalara əməl etməklə yazı qabiliyyəti;
3. Müvafiq sahə üzrə elmi və ya elmi-pedaqoji (xüsusi hallarda istehsalat və ya iş) təcrübəsi;
5. Test tapşırıqlarının tərtibi və ekspertizası ilə bağlı ilkin təsəvvürlərinin olması;

Qeyd: Yuxarıda sadalanan tələblərə cavab verən namizədlərə müvafiq şöbənin əməkdaşları tərəfindən test tərtibi və ekspertizası ilə bağlı təlimat verilir (treninq keçirilir), daha sonra onlar sınaq məqsədi ilə praktiki olaraq test materiallarının işlənilməsi işinə cəlb edilirlər (az sayda test tapşırıqları tərtib etmələri üçün onlara sifariş verilir və (və ya) az sayda test tapşırıqlarının ekspertizasına cəlb edilirlər). İşi təqdir olunan namizədlərlə müntəzəm əməkdaşlığa başlanılır.